KOB
Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

SAT GROUP

## Bazar araşdırması təqdimatı

# Özəl və korporativ geyimlərin istehsalı

# Araşdırma metodologiyası

**Özəl və korporativ geyimlərin istehsalı üzrə bazar araşdırması çərçivəsində aşağıdakı araşdırmalar və sorğular icra olunub :**

- Kabinet araşdırması, o cümlədən müxtəlif mənbələrdən əldə edilmiş statistik və analitik məlumatlar;

- Tekstil, özəl və korporativ geyim istehsalı ilə məşğul olan sahə ekspertləri ilə görüşlər və ekspert müsahibələri.



# TEKSTİL SEKTORU ÜZRƏ ÜMUMİ MƏLUMAT

# ►Ümumilikdə tekstil sektorunun hazırkı vəziyyəti

## 01

### İqtisadi inkişaf üçün önəmli sektordur

Dünyada ölkələrin ixrac əməliyyatlarında və iqtisadi vəziyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayan sahədir. İnkişafa açıq və potensialı geniş olan bir sahədir.

## 02

### Azərbaycanda potensial yüksəkdir

Bazar tam şəkildə əhatə olunmadığı üçün boşluqlar çoxdur və bu səsəblə sektorun inkişaf etdirilməsi üçün şərait mövcuddur. Bu sahə ucuz işçi qüvvəsi tələb etdiyi üçün Azərbaycanda buna şərait var.

## 03

### Hazır geyim sektoru

Artan tələbat ilə əlaqədar olaraq tekstil özü özlüyündə bir çox sahələrə ayrılmışdır. Bunun nəticəsində hazır geyim istehsalı tekstilin içərisində müstəqil bir sektor kimi inkişaf edir.

## 04

### Sapdan hazır məhsula

Tekstil sektoru sapın istehsalından, parça istehsalı, hazır məhsulun tikilməsi, ev tekstil məhsullarının hazırlanmsı, xalçaçılıq və s. kimi alt sektorlara bölünür.

## 05

### Çin dünya bazarında liderdir

Dünya üzrə olduğu kimi Azərbaycanda da idxalda Çin liderlik edir. Daha sonra Türkiyə, Pakistan, İran, Banqladeş və s. kimi ölkələrdən geyimlər gətirilir.

# ▶Hazır geyim sektoru tekstilin digər sahələrindən daha az maliyyətlidir

Geyim sənayesinin olduqca geniş olması nəticəsində bugünkü dünya standartlarında bu sahə tekstildən ayrılmışdır. Hazır geyim sektorunun tekstildən fərqli cəhətləri vardır:

**Daha az fiziki güc tələb edir (xüsusilə qadın işçi qüvvəsi çoxluq təşkil edir)**

**Maşın avadanlıqları rahat idarəolunandır və asanlıqla yerdəyişmə etmək mümkündür**



**Daha az kapital tələb edən sahədir**

**Bazara giriş və çıxış daha asandır**

# ►Dünya üzrə tekstil və hazır geyim ixracında lider olan ölkələr (milyard ABŞ dolları)



# Tam təchizatlı bir firmanın məhsul istehsalı sapdan hazır məhsula istehsalına qədər davam edir



# ►Hazır geyim sahəsi özündə bir çox alt sahələri birləşdirir



- Ortopedik ayaqqabılar.

- Balet və idman ayaqqabıları kimi xüsusi ayaqqabılar.

- Təbii və sintetik parçalar istehsalı.

- Köynək, şalvar, corab və qalstuk kimi geyimlər.

- Alt paltarları.

- Xüsusi geyim: idman geyimləri, uniforma

# AZƏRBAYCANDA TEKSTİL SEKTORUNUN ƏSAS SAHƏLƏRİ

# ►Ölkədə üst geyim istehsalı edən firmaların fəaliyyətinin nizamlanmasına ehtiyac var



Ölkədə üst geyimlərinin böyük bir hissəsi qeyri-rəsmi fəaliyyət göstərən sexlərdə tikilir və «Sədərək», «Binə», «Laçın» kimi ticarət mərkəzlərində satışı həyata keçirilir. Kişi üst geyimlərinin istehsalında daha çox fərdiləşməyə başlanılıb. Bu sahədə fəaliyyət göstərən «Mirzəyev tekstil» nisbətən ucuz kostyumların tikilişini edir, «FQ atelye» – baha və keyfiyyətli məhsullar hazırlayır, «Emiland» xüsusi sifarişlə hazırlanan və yüksək qiymətə satılan geyim istehsalında yetərincə böyük bazar payına sahibdir.

Bu sahədə ən çox maliyyə tələb edən sahə kostyum üçün keyfiyyətli parçaların alınması və istehsal fabrikində ütüləmə texnologiyasının qurulmasıdır.

# Korporativ geyimlərə böyük tələbat var və bazar artan templə davam edir



Azərbaycan tekstil bazarının böyük bir hissəsini korporativ geyimlər təşkil edir. Korporativ geyimlər hazır parçadan məhsulların tikilişindən və hazır məhsulların üzərinə loqoların vurulmasından ibarətdir. Bu məhsullara tələbatı olan sahələr kimi daha çox xidmət sektoru (restoran, otel və s.), arxa ofis əməkdaşları istisna olmaqla bank, sığorta və s. digər sektorlar, hərbi sahə, elektronika mağazaları, tibb sahəsi və s. aid etmək olar. Azərbaycanda bu fəaliyyəti həyata keçirən çoxsaylı irili xırdalı müəssisələr mövcuddur. Lakin bazar daima böyüyür və yenilənir, bu səbəblə potensialı yüksək sahədir.

# Buzovna və Bilgəhdə bir çox adsız qeyri-rəsmi sexlər fəaliyyət göstərir



| Hazırda Azərbaycanda fəaliyyət göstərən korporativ geyim istehsalı istehsalçıları | | |
|---|---|---|
| **Şirkətin adı** | **Xidmət sahəsi** | **Əlavə məlumat** |
| **Alyans** | 100% Korporativ | «Modern Qrup»a tabedir. SOCAR, Azərsu, Azqranata kimi özəl və dövlət şirkətləri ilə əməkdaşlıq edir. |
| **Star uniform** | 60% Korporativ | Özlərinin istehsal sahələri mövcud deyil |
| **Spector** | 60% Korporativ | İstehsal portfellərində ayaqqabıların sayı çoxluq təşkil edir |
| **Polartex** | 80% Korporativ | Pakistan şirkətidir. Əsas portfeli 2-3 düymə köynəklər təşkil edir |
| **İgea** | 60% Korporativ | |
| **Debet** | 100% Korporativ | Məhsullar Avropadan gətirilir. BP şirkəti ilə əməkdaşlıq edirlər. |
| **Vostok service** | 90% Korporativ | Rusiya şirkətinin Azərbaycandakı nümayəndəsidir |
| **Vostok protection** | 90% Korporativ | Rusiya şirkətinin Azərbaycandakı nümayəndəsidir |
| **Bakı Tikiş Evi** | 70% Korporativ | Azərbaycanda ən böyük tikiş fabrikidir. Əsasən milli ordu üçün geyim və məktəblilər üçün uniforma istehsal edir. |
| **Bakı Tekstil Fabriki** | 70% Korporativ | 1939-cu ildən fəaliyyət göstərir. 5000 addan çox trikotaj məhsullarının, o cümlədən yüksək keyfiyyəti və təhlükəsizlik göstəriciləri olan xüsusi geyimlərin (uniforma və formaların) istehsalı ilə məşğul olur. |
| **Coşqun uniforma** | 70% Pərakəndə | |
| **İdea** | 40% Korporativ | |
| **Kardelen** | 60% Korporativ | |
| **Başak uniform** | 100% Korporativ | İstehsalat yoxdur, sexlərdən alıb satırlar. |



# ►VOSTOK VƏ DEBET korporativ geyim bazarına liderlik edir

**Veb sayt: https://vostok.az/our_partners**

FQV (fərdi qoruyucu vasitələr)

geyimlər sahəsində bazar lideridir.

Rusiya şirkətidir

**Veb sayt: https://alyanstekstil.com/az**

2008-ci ildə fəaliyyətə başlayan firmadır və 250-ə yaxın əməkdaşla fəaliyyət göstərir. YDS və Fransanın DELTAPLUS şirkətlərinin Azərbaycandakı rəsmi distribyutorudur. Modern qrupa tabedir. Bazardakı şirkətləri 60%-i parçanı Alyans və Giltex şirkətdən alır.

**Veb sayt:**

**http://www.debet.az/az/products.php?cat=17**

1997 də yaradılıb. İkinci ən böyük bazar payına malik olan şirkətdir. Təqdim olunan işçi geyimlər neft, qaz, tikinti və sənayenin bir çox başqa sahələrində istifadə üçün nəzərdə tutulub.

# Bazarın digər iştirakçıları

| Şirkətin adı | Məhsulları | Şirkət haqqında |
|---|---|---|
| **"Vdesign"** | 1. Mehmanxana işçiləri üçün xüsusi geyimlər<br>2. Restoran işçiləri üçün xüsusi geyimlər<br>3. Mühafizə işçiləri üçün xüsusi geyimlər<br>4. Özəl tədris müəssisələrində tədris alanlar üçün xüsusi geyimlər<br>5. Xüsusi təyinatlı fəaliyyət üçün geyim formaları | 2008-ci ildən etibarən fəaliyyətə başladı. JW Marriott Absheron Baku Hotel, Hilton Baku hotel, Jumeirah Bilgah Beach Hotel, Heydər Əliyev Adına Müasir Təhsil Kompleksi, Port Baku Mall, British American Tobacco , Park Inn by Radisson Azerbaijan Baku, The Landmark Hotel Baku, Evrostar Cleaning Company, Staybridge Suites Baku, Fairmont Baku at the Flame Towers, Amburan Beach Club, Icheri Sherer Hotel, Kempinski Hotel Badamdar Baku, 2015 Bakı Avropa oyunlarında geyimlərin istehsalını həyata keçirdi. |
| **My VMR tekstil** | Daha çox iş geyimləri, iş təhlükəsizlik geyimləri və iş ayaqqabıları üzrə fəaliyyət göstərirlər. | 2013-cü ildə Türkiyənin distributoru kimi fəaliyyətə başlayıb.<br>2019-cu ildən etibarən isə müstəqil fəaliyyətə başladılar. |
| **Polar textile** | İşçi geyimləri, promo geyimlər, tibbi geyimlər, restoran geyimləri, xadimə geyimləri, otel tekstil, FQV | - |
| **Forma Baku** | Xüsusi geyim, peşə işçi geyimi, ayaqqabılar, dəri və əllərin qorunması üçün, məktəbli geyimləri | 2016-cı ildə təsis edilmiş Forma Baku fərdi mühafizə vasitələrinin, xüsusi işçi paltarlarının və peşə geyimlərinin istehsalını və satışını həyata keçirir. İstehsalat sahəsi Şəmkirdə yerləşir. Ümumi ofis heyəti 5, tikiş bölməsi isə 46 nəfərdən ibarətdir. Müştərilər içərisində: Milla, Coca Cola, Lubratech, Mobil1, Shell, Avista oil, Ravenol, Apex oil, Azertexnolayn, Artdekor, AyUsta, Champion, Azfen, Bravo Market, Bizim Market, Oba Market var. |

# Bazarın digər iştirakçıları

| Şirkətin adı | Məhsulları | Şirkət haqqında |
|---|---|---|
| **Star uniform** | Tikinti, qida, hərbi, tibb, neft, sənaye və qida sənayesi üzrə müştəriləri mövcuddur. | 3 ilə yaxındır ki, bazarda fəaliyyət göstərirlər. Şirkət Rusiyanın Azərbaycanda nümayəndəsidir. Əməkdaşların 10 ildən artıq təcrübəsi var. |
| **Ziyad Uniform** | İşçi Geyimləri və Xüsusi Qorunma Vasitələri | - |
| **Safe vision** | Yaz,yay,payız,iş geyimləri<br>Qış qeyimləri<br>Qoruyucu iş geyimləri<br>Korporativ işçi geyim formaları (bank işçiləri üçün, rəhbərlik və sairə)<br>Təhlükəsizlik strukturları üçün geyim, ov geyimləri<br>Xidmət, tibbi, iaşə geyimləri<br>Universal geyim (iş – istirahət)<br>FQV (fərdi qoruyucu avadanlıq)<br>Yanğın təhlükəsizliyi avadanlığı, yol nişanları və iş avadanlığı | 24 ildə çoxdur ki bazarda fəaliyyət göstərir |
| **AKMED MMC** | Güvənlik, hərbi mühafizə, sənaye, turizm, hotel, restoran, məktəb formaları və səhiyyə işçiləri üçün xüsusi formalar , bank və sığorta şirkətləri , sənaye müəsisələri üçün formaların tikilməsi. | 2012-ci ildə yaradılmışdır. Hal hazırda kontakt home ilə çalışır |
| **Brend Uniform** | İşçi geyimləri - daha çox ağır iş ilə çalışan sənaye sahələri üçün | 2004-cü ildə Avropa iş geyimləri indi ki adı ilə “Brenduniform” təsis edilərək fərdi mühafizə vasitələrinin, işçi və korporativ geyimlərinin istehsalçısı və satıcısı kimi fəaliyyət göstərməyə başlamışdır. |

# Azərbaycanda hazır geyim sektorunda ən böyük problemlər



Ölkədə xammalın xaricdən asılığı

Sap istehsal edən fabriklərin olmaması

Mütəxəssislərin və avadanlıqlarla çalışacaq mütəxəssislərin olmaması

İstehsal avadanlıqlarında xaricdən asılılıq. Texniki problem olduqda belə onu düzəldəcək mütəxəssis az saydadır.

# ▶ Tekstil sektorunda xaricdən gətirilən xammaldan asılılıq böyükdür



1. Azərbaycanda yerli sap istehsalının olmaması nəticəsində tekstilin əsas xammalı olan sap xaricdən gətirilir.

2. Neft istehsal edən ölkələrdə sintetik məhsulların istehsalı imkanlarının olmasına baxmayaraq Azərbaycana sintetik məhsullar, boyama üçün kimyasallar xaricdən gətirilir (ən çox Hindistandan).

3. İstehsal üçün avadanlıqların böyük bir qismi Türkiyə, Almaniya, Belçika, Çin kimi ölkələrdən alınır.

4. Kətan və yun iplik istehsalının olmaması nəticəsində Çin, Özbəkistan Pakistan kimi ölkələrdən idxal edilir.

5. 100%-li polyester və akrildə xaricdən gətirilir.

6. Türkiyədən hörgü parça idxal edilir ki, buda daxili bazardan onu əldə etməkdən daha sərfəlidir.

# Korporativ geyimlərdə corab və kişi alt geyimlərinə ehtiyac böyükdür

Ölkədə bir çox sahənin inkişafı mühüm əhəmiyyət kəsb edir ki, onlardan alt geyimləri və corab istehsalının mühüm əhəmiyyəti var.

**Kişi alt geyimləri**

Orduda alt paltarlarına yüksək tələbat var. Ölkədə yerli istehsal edən firmalar olsa da, bu məhsul ölkəyə əsasən Çindən gətirilir.

**Corab**

Coraba bazarda tələbat yüksək səviyyədə olsa da istehsalçılar maraqlı deyillər. Buna səbəb corabın gəlirinin aşağı olması, istehsal prosesinin uzun vaxt alması və  istehsal avadanlıqlarının baha olmasıdır.

## ► Xammal əsasən Çindən gətirilir, Rusiyadan hazır məhsul gətirmək gömrük şərtlərinə görə daha rahatdır.



Qiymətlərin daha münasib olması ilə əlaqədar olaraq parçaların böyük bir qismi **Çin**dən gətirilir. Bu parçaların tərkibi **65%** pambıqdan**, 35%** polyesterdan (sintetika) ibarətdir



İkinci böyük tədarükçü **Özbəkistan** bazarıdır. Əsasən pambıq tərkibli parçalar gətirilir, burada pambıq daha ucuz və keyfiyyətlidir.



Hazır məhsullar **Rusiya**dan gətirilir. Çünki gömrük şərtləri daha məqbuldur və ucuzdur



**Türkiyə**dən əsasən Bursadan gətirilən parçalar Çinə nisbətən qiymətləri daha baha olur və daha keyfiyyətli olur. Bu parçalar mülki geyimlərin tikilməsi zamanı istifadə olunur.

# KORPORATİV GEYİMƏ EHTİYACI OLAN SAHƏLƏR

# ►İstehsal sahələri üçün geyimlərdə təhlükəsizlik birinci şərtdir



İstehsal sahəsi xüsusilədə neft istehsalı kimi ağır sahələrdə korporativ geyimlər qoruyucu xarakter daşıyır. Bu geyimlər oda davamlı olmaqla yanaşı, su keçirməyən olması və hava keçirtməsi əsas şərtdir. Bu cür geyimlərin tikilməsi üçün parçalar ölkəyə xaricdən idxal edilir. Geyimlərə alt və üst geyimlər, qoruyucu əlcəklər, qoruyucu eynəklər, dəbilqələr, ayaqqabılar daxildir.

İldə iki dəfə mövsümə uyğun olaraq qış və yay geyimləri olaraq dəyişilir. Bu sahənin forma dəyişmə tezliyi daha yüksəkdir. İş şəraiti ilə əlaqədar olaraq cırılır, yanır və deformasiyaya uğrayır. Bu gün ölkədə **350 min** nəfərdən çox əhali ağır sənaye və ya bu kimi ağır sahələrdə çalışır.

# ▶Dövlət orqanlarının geyimləri üçün tenderlər keçirilir





Hərbi geyimlərin istehsalına görə «Bakı Tikiş Evi» böyük bazar payına malikdir. Dövlət sifarişi ilə olduğuna görə qalib şirkətlərin seçimi tender vasitəsilə aparılır və digər firmalar da bu fəaliyyətdə iştirak edir. Dövlət sektorunda və hərbidə çalışan hər bir şəxsin forma geyinməsi zəruridir ki, onlar ildə iki dəfə olmaqla yay və qış mövsümündə formalarını yeniləyirlər.

Azərbaycanda 370 mindən çox hərbi qulluqçu var.

# ▶ Korporativ imicin yaradılmasında geyim böyük yer tutur







Korporativ geyim bir çox şirkətlər üçün «korporativ imic»in yaradılması üçün mühüm vasitədir. Korporativ imicə üstünlük verən şirkətlər üçün unikallıq və səliqə vacibdir.

Baku Bus, 166 yükdaşıma kimi şirkətlər əməkdaşları üçün korporativ geyim əldə edərkən bu kriteriyaları tələb edirlər.

# ►Sifariş tezliyi sektordan asılı olaraq dəyişir



Restoran və otelçilik sahəsində korporativ geyimlərin ən mühüm tələbi təmiz və səliqəli olmasıdır. Bu sahə üçün geyimlərin sirafiş tezliyi neft və digər ağır sənaye sahələrə nisbətən daha yüksək tezliklə həyata keçirilir. Buraya ofisiant, xadimə, aşpaz, administrator və digərlərinin geyimləri daxildir. Bu gün ölkədə **55 min nəfərə** yaxın insan bu sahədə çalışır. Turizm sektorunun genişlənməsi və restoranların sayının artması bu sahəni potensial sahələrdən birinə çevirir.

# ► Elektronika sektoru korporativ geyim üçün potensiallı sahələrdəndir




Elektronika məhsullarının satışını həyata keçirən şirkətlərin korporativ geyimdə önəm verdikləri ən mühüm nüans, onların marka siyasətinə uyğun olmasıdır. Hər bir firmanın özünün brendinə uyğun şəkildə geyimlər dizayn edilir. Buraya Kontakt Home, İrşad Telecom, Maxi.az və s. Kimi şirkətlər misal göstərilə bilər. Bugün bu sektorda **10,000 nəfərdən çox** işçi çalışır. Bu sektorda işçilərin dəyişməsi və yeni filialların açılması formaların tezliyinə təsir göstərir. Bu firmalar korporativ geyimlərini (qış və yay) olmaqla sifariş edirlər.

# ►Səhiyyə sektoru bazar payında böyük yerə malikdir



Həkimlər, tibb bacıları, əczaçılar, rezidentlər və digər səhiyyə sahəsində fəaliyyət göstərən şəxslər uniformaların alışında böyük paya sahibdirlər. Bu gün ölkədə **180 min**-dən çox insan bu sektorda çalışır. Ölkədə yeni xəstəxanaların və səhiyyə ocaqlarının tikilməsi ilə bu say ildən ilə artmaqdadır. Eyni zamanda bu gün həkim xalatlarının və digər geyimlərin qiymətinin yüksək olması bu sahəni gəlirli edir.

# ▶Maliyyə və qida sektoru korporativ geyim üçün böyük bazardır



Bu gün bütün sektorlar korporativ geyimlərə üstünlük verirlər. Xidmət xüsusilə də maliyyə sektorunda çalışanlar (bank, sığorta), marketlər şəbəkələri (Bravo, Neptun və s.) arxa ofis əməkdaşları üçün deyil müştərilərlə çalışan əməkdaşlar üçün uniformaların alınmasını həyata keçirirlər. Daha çox üst geyim, xadimələr üçün köynək-şalvar, mühafizə və digərləri üçün isə kostyumlara üstünlük verilir. Ölkədə bu sahələrdə çalışan **50 mindən** çox əməkdaş mövcuddur.

# KORPORATİV VƏ ÖZƏL GEYİMLƏRİN TİKİLMƏSİ ZAMANI İSTİFADƏ OLUNAN PARÇALAR

# ►NOMEKS parçalar - Ağır sənaye və təhlükəli peşələr üçün nəzərdə tutulub





Nomeks parçalar daha çox neft-qaz və mədən sənayesində çalışan əməkdaşların geyimlərinin tikilməsi üçün istifadə edilir. Eyni zamanda yanğınsöndürmə kimi təhlükəli peşə ilə məşğul olan şəxslərin geyimlərinin tikilməsi zamanı bu parçadan istifadə edilir.

NOMEKS parçalar 4 qatdan ibarətdir: iç astar, istilik qoruyucu, nəm qoruyucu və üst qat. Bu tip parçalar suya və oda davamlı olmaqla eyni zamanda hava keçirmə xüsusiyyətinə malikdir. 1 Metr üzrə qiyməti **240-250 AZN** arasında dəyişir. Əsasən xaricdən idxal edilir.

# ►2 ipli və 3 ipli parçalar qış paltarlarının tikilməsi üçün istifadə edilir



Bu parçalardan hazırlanan geyimlər isti saxlama funksiyası ilə seçilir. 2 İpli və 3 İpli adlandırılan parçaların içi tüklü olur. Bu parçalardan qış paltarlarının tikilməsi üçün istifadə edilir. Bu parçalar hörmə parçalar olduğu üçün az qırışır, az yığılır və bədəni asan şəkildə sarır.

Daha çox corab, alt paltarları, alt geyimləri, köynəklərin, alt və üst idman geyimlərinin, uşaq geyimlərinin istehsalında istifadə edilir.

Azərbaycana daha çox Özbəkistandan idxal edilir.

# Pambıq parçalar keyfiyyətli olsalar da geyim sektorunda çox üstünlük verilmir





Pambıq parçalardan özəl geyimlərin hazırlanmasında korporativ geyimlərə nisbətən daha çox istifadə edilir. Çox vaxt korporativ geyimlərin tikilməsi zamanı pambıq parçalara üstünlük verilmir və ümumiyyətlə istənilmir. Buna səbəb isə bu tip parçaların yuyulduğu zaman rənginin qaçması və yığılmasıdır. Üzərinə vurulan logoları isə çox vaxt yaxşı saxlamır və bir neçə dəfə yuyulmasından sonra keyfiyyəti azalır. Bu səbəblə polyester qarışığı olan parçalara üstünlük verilir. Bu tip parçaların böyük bir hissəsi Çindən gətirilir.

# KORPORATİV VƏ ÖZƏL GEYİMLƏRİN İSTEHSALINI HƏYATA KEÇİRƏN AVADANLIQLAR

# ►İplik fabrikinin qurulması zamanı istifadə ediləcək keyfiyyətli və müasir avadanlıqlar








«Rieter» (İsveçrə), «Muratec» (Yaponiya), «Electo-Jet» (İspaniya), «Xorella» (İsveçrə)
və s. şirkətlərinin avadanlıqlardan istifadə edilir.
Bu avadanlıqlar iplərin əyrimə üsulu ilə hazırlanmasını həyata keçirir

# ▶Toxuma fabrikinin qurulması zamanı istifadə ediləcək avadanlıqlar







Toxuma fəaliyyətinin həyata keçirilməsi üçün əsasən Almaniya istehsalı olan «Karl Mayer» markalı arğac hazırlama və haşıl dəzgahları, Belçikanın «Picanol» parça toxuma maşınları, Almaniyanın «Mayer&Cie» hörgü maşınları, İtaliyanın «İtema» markalı dəsmal toxuma maşınlarından istifadə edilir.

# Boyama fabrikinin qurulması zamanı istifadə ediləcək avadanlıqlar







Boya prosesinin həyata keçirilməsi üçün əsas avadanlıqlar «Benninger» (İsveçrə), «Monforts» (Almaniya), «Zimmer» (Avstriya), «Salvade» (İtaliya), «Mario Crosta» (İtaliya), «Fimat» (İtaliya), «SPGPrints» (Avstriya), «Datacolor» (ABŞ), «Thies» (Almaniya), «Brückner» (Almaniya), «Santex» (Almaniya), «Ferraro» (İtaliya), «Biancalani» (İtaliya) kimi şirkətlərdən alınır.

# ▶ Laboratoriyaların qurulmasına ehtiyac var



Ölkədə tekstil sektorunda mövcud olan ən mühüm problemlərdən biri fəaliyyət müəssisələrində laboratoriyaların olmamasıdır. Laboratoriyalar keyfiyyətə nəzarət etməklə müştəri məmnuniyyətinin artırlmasına gətirib çıxardacaq.

Boyama prosesi əsasən 4 formada həyata keçirilir:

1. Reaktiv boya və basqı
2. Piqment basqı
3. Dispers boya
4. İndantren boya

# ▶Tikiş fabrikinin qurulması zamanı istifadə ediləcək avadanlıqlar








Tikiş fabrikinin qurulması üçün Almaniyanın Bullmer avtomatik kəsim avadanlığı, Yaponiya istehsalı Juki tikiş maşınları, Almaniyanın Veit press və ütüləmə avadanlığı, ABŞ-ın Barudan və Yaponiyanın Tajima tikiş naxışı və Türkiyənin Sulfet basqı naxışı dəzgahları mühüm əhəmiyyətə malikdir.

Yataq dəstlərini avtomatik tikmək üçün Almaniyanın Texpa avadanlığı, yorğan və yastıq istehsalını təmin etmək üçün İspaniyanın Masias dəzgahları istifadə olunur.

# Tikiş fabrikin qurulması parça istehsalına nisbətən az maliyyə tələb edir




40-50 nəfərlik bir tikiş fabriki üçün tikiş maşınları alınması 100.000 AZN-dən az xərc tələb edir.
Tikiş maşınlarının qiyməti 500 AZN-dən 10.000 AZN-dək dəyişir. Fabrikdə əlavə olaraq kəsim, ütüləmə və basqı üçün avadanlıqlar olmalıdır.

# KORPORATİV VƏ ÖZƏL GEYİMLƏRİN İSTEHSAL PROSESİ

# Parça istehsalı 3 mərhələdən keçir

Pambıqdan iplik almaq (Hazırda bu işi görən 3 fabrik var : Mingəçevir Tekstil Parkı, MKT və Giltex)

Parçanın boyanması və bəzəkləmə son mərhələdir




İplikdən parça toxunması (Giltex tərəfindən həyata keçirilir)

# Hazır məhsulun alınması bir neçə mərhələdən ibarətdir

- **Kəsim mərhələsi** – bu mərhələdə hazır parça qəliblərə uyğun olaraq kəsilir

- **Boyama mərhələsi-** kəsilən parça sifarişə uyğun şəkildə xüsusi üsullarla boyanır




- **Tikiş mərhələsi-** Əgər məhsulun boyanmasına ehtiyac yoxdursa birbaşa tikişə gedir

- **Ütüləmə/Düymə vurma-** Məhsul son olaraq hazırlanır paketlənir və anbara göndərilir

# ►Ən mühüm mərhələ loqonun və ya naxışın vurulmasıdır

Şirkətlər loqodan geyimin **sinə** və **kürək** hissədə daha çox istifadə edirlər. Loqoların vurulması parçaya görə dəyişir əsasən 3 üsuldan istifadə edilir.

**Fleks üsul**

Bu ən ucuz başa gələn üsuldur. Bu zaman nakleka formasında olan logo isti (ütüləmə) yolu ilə parçaya yapışdırılır.

01

**Boyama qəlib üsulu**

Orta qiymətə başa gələn üsuldur. Bu zaman xüsusi matrisalar yaradılır, loqo boyanır sonra köynəyin üstündə istilik verilir.

02

**İynələmə üsulu**

Ən baha və uzun ömürlü üsuldur. Polyester parçalarına daha çox üstünlük verilir.

03

# Bu sektor üçün Bakı və Sumqayıt ən yaxşı ərazidir

Bakı və Sumqayıt tekstil sektoru üçün ən yaxşı zonadır. Xüsusilədə Sumqayıtda bu cür müəssisələrin tikilməsi üçün yetırincə sahə var, bundan əlavə icarə qiymətləri daha ucuzdur. Bakı ərazisində kəndlərdə də geniş ərazilər mövcuddur. İşçilərin gediş gəliş rahatlığı, eləcədə məhsulların daşınması üçün mərkəzə yaxın və ya rahat bölgələr seçilməlidir.



# ŞİRKƏT DAXİLİNDƏ İNKİŞAFI GÖZLƏNİLƏN SAHƏLƏR

# ►Korporativ satış fəaliyyətinin düzgün qurulması olduqca vacibdir



Korporativ və özəl geyim istehsal edən şirkətlər üçün B2B satış fəaliyyətin 99%-ni təşil edir. Bu cür şirkətlər daha çox yüksək həcmli sifarişlərin götürülməsinə və böyük şirkətlərlə əməkdaşlıqların qurulmasına çalışırlar. Buna səbəb isə az sayda sifarişlərin gəlili olmamasıdır. Bu səbəblə əlaqələrin qurulmasında, peşəkar satıcılar tərəfindən yeni müştərilərin cəlb edilməsinə və köhnə müştərilərin saxlanılmasına ehtiyac vardır. Artan sifarişçi sayını nəzərə alaraq satıcı potensial müştəriləri vaxtında tapmalıdır.

# ▶Satış əməkdaşların peşə bacarıq qabiliyyəti artırılmalıdır



Müştərilərlə birbaşa görüş zamanı ən mühüm amil satış əməkdaşının peşəkarlığı, biliyi və məhsul haqqında tam məlumatlı olmasıdır. Bu səbəblə firmalar satış şöbəsi əməkdaşlarının təlimləndirilməsinə, onların ixtisas bacarıqlarının artırılmasına xüsusi önəm verməlidir.

# ► Avadanlıqlarla işləyə bilən mütəxəssislər yetişdirilməlidir



Bu gün tekstil bazarının ən mühüm problemlərindən biri avadanlıqlarla işləyə bilən və bu sahədə irəliləyişə səbəb olacaq mütəxəssislərin olmamasıdır. Bu səbəblə xaricdən mütəxəssislərin gətirilərək sektordakı işçilərə təlimlərin keçirilməsi və sonda imtahanların götürülməsi gələcəkdə həmin insanların da gələcək əməkdaşlara öz bildikərini öyrətməsinə, zaman keçdikcə bazarda mütəxəssislərin formalaşmasına səbəb olacaq. Bunun üçün eyni zamanda peşə məktəbləri də fəaliyyətə cəlb edilə və onlarla əməkdaşlıq qurula bilər.

# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜRLƏR!